# “Mənim Qərbi Azərbaycanım – Xatirələr” kitabının təqdimatı keçirilib



## Əsas məqsəd Qərbi Azərbaycanla bağlı tarixi daha dərindən öyrənmək və gənclərə çatdırmaqdır

**Firudin QURBANOV:**

“Keçmişini bilməyən xalqın uğurlu gələcəyi ola bilməz. Məhz buna görə də Qərbi Azərbaycanla bağlı bütün tarixi məqamları öyrənmək lazımdır. Qərbi Azərbaycanın maddi və qeyri-maddi irsi, ümumi ənənələri haqqında dolğun məlumatları gələcək nəsillərə təqdim etmək çox önəmlidir, çünki bu, gənclərimizdə vətənpərvərlik hisslərini formalaşdırır. Tarixi bilən insan gələcəkdə baş verən hadisələri düzgün qiymətləndirə bilər. “Qərbi Azərbaycana qayıdış” konsepsiyasına uyğun olaraq, Elm və Təhsil Nazirliyinin bir sıra layihələri həyata keçirilir. Bu istiqamətdə Azərbaycanın bir sıra ali məktəblərində Qərbi Azərbaycan mərkəzləri yaradılıb və bu mərkəzlərdə müvafiq araşdırmalar, tədqiqatlar aparılır. Əsas məqsəd də Qərbi Azərbaycanla bağlı tarixi daha dərindən öyrənmək və gənclərə çatdırmaqdır. Bu, ən əsas missiyalardan biridir”.






Elm və Təhsil Nazirliyi və Qərbi Azərbaycan İcmasının birgə təşəbbüsü ilə Qərbi Azərbaycandan olan müəllimlərin xatirələrini əks etdirən “Mənim Qərbi Azərbaycanım — Xatirələr” kitabının təqdimat mərasimi baş tutub. Kitab müəlliflərin özlərinin və valideynlərinin xatirələrinə əsaslanan məqalələr toplusudur.

Tədbirin açılışında çıxış edən Qərbi Azərbaycan İcmasının sədri, millət vəkili Əziz Ələkbərli bildirib ki, müəlliflər Qərbi Azərbaycan əsillidir və hazırda ölkənin müxtəlif bölgələrində pedaqoji fəaliyyətlə məşğuldurlar.

Təqdimat mərasimində iştirak edən elm və təhsil nazirinin müavini Firudin Qurbanov öz növbəsində vurğulayıb ki, bu kitab gənclərdə vətənpərvərlik hisslərinin güclənməsinə, Qərbi Azərbaycan həqiqətlərinin tanıdılmasına mühüm töhfə verəcək. Nazir müavini bildirib ki, keçmişini bilməyən xalqın uğurlu gələcəyi ola bilməz. Buna görə də Qərbi Azərbaycanla bağlı bütün tarixi məqamların öyrənilməsi zəruridir.

Digər çıxışçılar da Qərbi Azərbaycan irsinin qorunmasının, həqiqətlərin dünyaya çatdırılmasının və gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsinin vacibliyini xüsusi qeyd ediblər.

Çıxış edən layihənin meneceri, Elm və Təhsil Nazirliyinin Daxili nəzarət şöbəsinin əməkdaşı, Azərbaycan Yazıçılar Birliyinin üzvü Rövşən Ağayev isə kitabın yalnız ölkə daxilində deyil, beynəlxalq müstəvidə də tanıdılmasının əhəmiyyətinə diqqət çəkib və nəşrin pedaqoji prosesdə də faydalı ola biləcəyini bildirib.

**Mərziyyə KAZIMZADƏ**